QURBANQULU
BERDİMƏHƏMƏDOV

# TÜRKMƏNLƏRİN MƏNƏVİ DÜNYASI

TÜRKMENISTAN - BITARAPLYGYŇ MEKANY 1995-2020

63.5(5Tyр) +83.3 (5Tyр)
B47

**Qurbanqulu Berdiməhəmədov. Türkmənlərin mənəvi dünyası**
Bakı, "Şərq-Qərb", 2020, 312 səh.

ISBN 978-9952-537-35-2

Cəmiyyətin həyatını araşdıran tarix bizə zəruri təcrübə əldə etmək imkanı verir. Qəhrəman-Prezidentin "Türkmənlərin mənəvi dünyası" adlı yeni kitabı bəşəriyyətin həyat təcrübəsinə hərtərəfli baxışın ifadəsidir. Qüdrət və bəxtiyarlıq əsrində bizim müstəqil və daim neytral Vətənimiz dünyanın bütün dövlətləri ilə qarşılıqlı faydalı əməkdaşlığı uğurla həyata keçirir. Bu, xalqımızın çoxəsrlik həyat təcrübəsinin daim mükəmmələşməsinin göstəricisidir. Türkmənistanda Qəhrəman-Arkadağın müdrik rəhbərliyi altında dünya xalqları arasında dostluq münasibətlərinin möhkəmlənməsinə yönəlmiş vəzifələr gerçəkləşir. Özü də bu vaxt qədim mənbələrin zaman keçdikcə yeni məzmun kəsb etməsi barədə sarsılmaz həqiqətlər daha bariz təzahür edir. Əlinizdəki kitabda bu həqiqətlər daha parlaq ifadəsini tapır. Qəhrəman-Arkadağın "Türkmənlərin mənəvi dünyası" kitabı geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

© Q.Berdiməhəmədov, 2020

- 256833 -

# Yerin və göyün himayəsində olan diyar

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Mənim əziz xalqım!

Biz səmaların himayə etdiyi gözəl Vətən torpağının böyük tarixi dövrünə qədəm basmışıq. Bu dövrün konkret məzmunu bəşəri dəyərlərdə cəmləşib. Elə dövrün hədəfləri də bəşəri dəyərlərdədir. Müasir inkişaf əsrinin yeniliyi də məhz onlara söykənir.

Bəşəri dəyərlər bizim zəmanənin mühüm prinsiplərinin təməlidir. Çünki bəşər tarixinin keşməkeşli gedişi insan üçün nəyin əsas olduğunu dəqiq ifadə edir.

Müasir dövr tarixi ziddiyyətləri arxada qoyaraq təsdiq etdi ki, mövcudiyyətin mənası, ilk növbədə, bəşəri dəyərlərə hörmətdən başlanır. Bu, elmin, təlimin, təməlində insana qayğının durduğu və özündə bütün aləmin daim hərəkətdə olduğu barədə ideyaları ifadə edən biliklərin təntənəsi dövrüdür.

İnsan üçün sərvətin ən mühüm ölçüsü Yer üzündə sülh, sağlam həyat tərzi və rifahdır. Dünyanın aparıcı doktrinləri sülhsevərliyə və dostluğa söykənir. Bizim Vətənimiz “Türkmənistan – Bitərəfliyin Vətənidir” ili elan edilmiş 2020-ci ili böyük uğurlarla qarşıladı. Bu o deməkdir ki, ölkəmizin tarixi boyu, xalqımız inkişaf və sülh naminə mehriban münasibətlərə həmişə bel bağlayıb. Bu doktrina xalqımızın tarixi həyatında mühüm yer tutaraq həyati məsələlərin araşdırılması üçün nəhəng təkan olub. Vətənimizin daim bitərəfliklə fərqlənən statusu dünya xalqlarının çiçəklənməsi və sonrakı nəsillərin işıqlı gələcəyi ilə əlaqədar mühüm vəzifələrin uğurlu həllini təmin edir. Daim bitərəf olan Türkmənistanın dövlət siyasəti sülhün təmini və bəşəriyyətin rifahına yönəlib. 2020-ci ildə mühüm bir tarix – müstəqil Vətənimizin 25 illiyi təntənə ilə qeyd edilir. Tarix salnamələrində hələ Oğuz xanın zamanlarından sülhsevərlik və dostluq əsas prioritet olub. Qoy Yer üzündə xalqların birlik və qardaşlıq nəğməsi əbədi səslənsin!





Uzun əsrlərdən sonra Yer üzündə aləmin mahiyyətinin aydın və dəqiq qavrayışı münasibətlərin tamam yeni keyfiyyətinin yaranmasını təmin etdi. Bu qavrayış mövcudiyyətin konkret hədəflərinin ümumiliyindədir və qədim zamanlarda formalaşmış vahid qaydada təzahür edir. Çünki həyat səndən sonra təbiət və ətraf mühitin ilkin simasının qorunub saxlanılmasına qayğı ilə yanaşmaq demək-

dir. Bu, BMT-nin "Dayanıqlı İnkişaf Hədəfləri"ndə təcəssüm olunur. Həmin Hədəflərdən doğan vəzifələr "Türkmənistan Dayanıqlı İnkişaf Hədəflərinə aparan yolda" adlanan fundamental əsərdə öz əksini tapır. Türkmənistan bütövlük prinsiplərinə humanizm nöqteyi-nəzərindən qiymət verir və onun ümumi prinsiplərinin möhkəmləndirilməsi naminə irəliləməyə can atır. Bu o deməkdir ki, bütün bəşəriyyətin rifahına yönələn səylərdə mədəniyyətimizin özünəməxsusluğu və yaratdığımız milli dəyərlər öz əksini tapır. Məhz buna görə də hər bir xalqın inkişafında bəşəri dəyərlərin yaradılması özünün əsas başlanğıcını milli dəyərlərin, şüurun və düşüncə tərzinin kamilləşdirilməsindən götürür. Bu barədə danışarkən qeyd etmək istəyirəm ki, tarixin bütün axarı boyu ölkəmizin ərazisində müxtəlif mədəniyyətlərin çiçəklənmə dövrləri bu amilə təkan verib. Hazırda müstəqil, daim bitərəf olan Türkmənistanın inkişafı isə dünyanın təkamülündə özünün layiqli yerini tutmağa yönəlib. Çünki inkişafın məzmununda bu, yaxud başqa bir xalqın bütün dünya üçün yaratdığı dəyərlər gələcəkdə yaradıcılığın və zəkanın etibarlı təməli olur.

Bu məsələ aşağıdakı rəvayətdə öz əksini tapır: "Üç müdrik əzəmətli bir ağacın sıx kölgəliyində əyləşib insana nəyin – keçmişin, indinin, yaxud





gələcəyin daha çox gərək olduğunu aydınlaşdırmağa çalışır. Onlardan biri deyir:

– Keçmiş olmasa, necə yarandığını haradan biləcəksən?! İnsan bütün bacarıqlarını keçmişdə eşitdikləri və öyrəndiklərindən əldə edir. Sən əvvəllər tanıdığın insanlara etibar edə, əvvəl gördüyün şeylərdən baş çıxara bilərsən. Odur ki, məncə, insan üçün ən mühüm olan keçmişdir.

İkinci müdrik onun dediklərinə öz münasibətini bildirir:

– "Olan oldu, keçən keçdi". Keçmişin nə faydası var?! İnsan gələcəklə yaşamalıdır. Gələcək, yəqin ki, mənə tamam yeni, əvvəllər görmədiyim mətləblər açacaq. Əgər mən gələcəklə yaşayıramsa, keçmiş olmadan da keçinə bilərəm.

Üçüncü müdrik onların hər ikisinə diqqətlə qulaq asır, sonra gülümsünür və bu suala dəqiq cavab verir:

– Hər ikinizin dedikləri şüurumuzda yaşayan təsəvvürlər və xatirələrdir. Keçmiş arxada qalıb, gələcək isə hələ gəlməyib. İnsan indiki zamanla yaşamalıdır, onun üçün bu gün mühümdür".

Şərq müdriklərinin dediyi kimi, keçmiş dünənki gündə qalır, insan isə arzu qanadlarında irəli gedir. İndiki zamanda gələcək üçün zəruri olan dəyərlər

formalaşır. Onların şəkillənməsinin əsas nöqtəsi hazırkı zamanda olur. İndiki zamanın kökləri keçmişdə, budaqları gələcəkdədir. Xalqın mədəniyyəti zəmanələrin optimal vəhdətindən doğan nəticədir. Xalqın şüurunda əsrlərlə yaşayan ənənə və rəvayətlərimiz, habelə ağızdan-ağıza keçən əfsanələrimiz qədim zamanlardan bəri keçmişdən gələcəyə aparan körpü olub. Humanizmin ən nəcib prinsiplərinin kökləri mədəniyyətdə yaşayır. Çünki o, təqlidə layiq olan rəvayət və nəsihətləri bizlərə təlqin edir. Möhtərəm oxucu, bu fikri xüsusi vurğulayaraq, gələcəyə gedən yolda sənə uğurlar arzulayıram. Nə yaxşı ki, bu yollar öz gücünə inam və xeyirxah arzularla doludur.

Bizim modernləşdirmə siyasətimiz öz başlanğıcını bu günün konkret addımlarından götürür və bizi yüksək nailiyyətlərimizlə keçmişlə gələcəyin qovşağındakı gələcək yaradıcı gücün nəhayətsiz ənginliklərinə aparır. Düşünərək mülahizə yürütməyi bacarmaq nəhayətsiz sərvətlər xəzinəsinin açarını tapmaq deməkdir. Yaşamaq, sadəcə, vaxt keçirmək deyil, zamandan ötərək əbədiyyətə səfər etməkdir. XXI əsrin əvvəllərində biz güclü dövlət quraraq əmin idik ki, xalqımızın hörmətini daha çox artırır və insanların şüurunda sabahkı günə





tükənməz inam formalaşdırırıq. Nailiyyətlərimizlə bəşəriyyətin gələcək nəsillərə miras qoyduğu müdrik prinsipləri də yaşadırıq.

Doğma Vətənimizdə elə bir mühit formalaşıb ki, qarşımızda hərtərəfli inkişaf üçün çox geniş imkanlar açır. Bunu yalnız təbii-coğrafi anlamda deyil, həm də əsl həyat həqiqəti kimi qəbul etməliyik, çünki bu həqiqət yaradıcı təlimlərə və fəaliyyətə yol açır. Bu həm də qədim zamanlarda Türkmənistanın bütün Böyük ipək yolunun ən etibarlı sahəsi olduğunu işıqlandıran dərin məzmunlu rəvayətlərdə yer alır. Son nəticə, fikir və təlimlərin, bacarıq və qabiliyyətlərin keyfiyyətcə yeni mənimsənilməsindən əldə olunan məhsuldur. Dəyişmənin tam analizinin çətinliyi də məhz bundadır. Bu barədə danışarkən mən ən mühüm tarixi hadisələrin nəticələrinə, direniş və kamilləşmə nöqtələrinə diqqət çəkməyə çalışıram. Mən bunu indiyə kimi xalqımızın həyatında kamilləşən və artıq ümumi qaydalara çevrilmiş aşağıdakı prinsiplərə uyğun şəkildə ifadə edirəm:

Dünyanın rifahı əbədi həyatın rəhnidir;
Təhsil və elm həyatını işıqlandırır;
Sağlamlıq rifahdır;
Əməyə məhəbbət mərdlik mənbəyidir;

Qonaqpərvərlik;
Dostluğun nəcib ənənələri;
Vicdan;
Birlik;
Zəka işığı.

Qoy inkişaf və çiçəklənmə yolunuzu nura qərq etsin! Çünki səni əhatə edənlərin, inkişaf barədə arzularla yaşayanların hamısına münasibətin harmonikdir. Bu münasibətin mayasında bütün canlıların harmonik hərəkətində hər şeyin öz yerində olmasının zərurətini hiss etmək istəyi var. İnkişaf ədalətdədir. İnkişaf insanın öz arzularını və əməllərini dərk etməsindədir. Uzun əsrlər boyu qəbul olunan milli ənənələrin və cəmiyyət həyatına xas qanunların etirafı inkişafın bünövrəsidir. Onların sanki daş üzərində həkk olmuş məzmunu xalqın şüurunda yaşayan, insanlar arasında geniş yayılmış rəvayətlərlə nəsildən-nəslə ötürülür.

Bizim qədim Kesarkaçın ənginliklərində, şərqdə Amudərya sahilləri və möcüzələr diyarı Koytendağ, qərbdə yamyaşıl çəmənlər, nəhayətsiz Qaraqum – bütün bunlar çiçəklənən diyarlardır. Yenidən yaranmanın və dəyişmənin başlıca şərtinin qarşılıqlı əlaqə olması öz təsdiqini yalnız təbiət elmlərində tapmır. Bu, ictimai inkişafın gedişində də inkar et-





mək mümkün olmayan bir həqiqətdir. Ölkəmizin ərazisindən keçən qədim yollar, dövlətimizin müasir beynəlxalq nəqliyyat-kommunikasiya infrastrukturu inkişafın istiqamətverici əsaslarını təşkil edir. Əgər nəhayətsiz torpaqlarımızı dinləyə bilsək, həqiqətən də, əbədi inkişaf himnini eşidərik. İndi, III minilliyin əvvəlində, dünya tarixində özünəməxsus yeri olan Nisa şahlığının qədim ərazisində Aşqabad yerləşir – bayrağı bütün dünyada tanınan müstəqil və daim neytral Türkmənistanın paytaxtı. 10 aprel 2019-cu ildə biz Aşqabaddan qərbdə Axal vilayətinin yeni mərkəzinin təntənəli təməlqoyma mərasimində iştirak etdik. Belə nəhəng tikinti layihəsinin icrası – bütöv bir şəhərin inşasının gerçəkləşdirilməsi bütün zamanlarda yalnız güclü dövlətlərə nəsib olub. Bu təntənələr mənə tarixin müxtəlif dövrlərini xatırlatdı və bu, görünür, tarixi məlumatların heç də daimi əsaslandırılması səbəbindən baş vermir, bu bizim həyat həqiqətlərini əks etdirir.

Bu gün Uzboyun qədim məcrasının cizgilərini seçmək çətindir. İndi onun məcrası yanında dünyanın ən əzəmətli səhralarından olan Qaraqum uzanıb gedir, qumsallıqların sinəsini nəhəng hidroqurğu – Türkmənistanın “Altın Asır” gölü kəsir.



Hörmətli oxucu,

“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.